*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 321-326*

https://doi.org/10.62837/2025.2.321

**GÜNAY QARAYEVA**
**AMEA.Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**
**Bakı, Hüseyn Cavid pr.117**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**gunaygarayeva@gmail.com**

# AZƏRBAYCAN ƏDƏBİYYATINDA DAĞ SİMVOLU

**XÜLASƏ**

Məqalədə Azərbaycan ədəbiyyatının "ağsaqqal" obrazlarından olan "dağ" ın simvolik məna çalarlığı tədqiq olunur. Təkcə Azərbaycan ədəbiyyatında deyil, ayrı-ayrı mədəniyyətlərdə, xüsusilə, Türk xalqları ədəbiyyatında zəngin mənaya malik "dağ"ın simvolik mənalandırmalarına diqqət yetirilir. Kitabi - Dədə Qorqud və eləcə də ayrı-ayrı Türk xalqlarının dastanlarında , folklor nümunələrində, aşıq yaradıcılığı, yazılı ədəbiyyat və çağdaş şeir nümunələrində dağ obrazının bədii simvol kimi çoxçalarlı funksiyaları verilir. Dağın böyüklük, ucalıq rəmzi, igidlik, ərənlik meydanı və eləcə də, yurd yeri, vətən simvolu kimi simvolik məqamları ayrı-ayrı dövr kontekstində izlənilir. Dağ obrazının Azərbaycan ədəbiyyatında simvollaşmasının dar zaman çərçivəsində deyil, xalqın etnogenezisində, dünyaduyumunda, psixoloji-ruhi halətində, müəyyən tarixi-mədəni hadisələrindən keçərək yeni ideya və məzmunla yükləndiyi aparılan təhlillər zaman müəyyən edilir.

**Açar sözlər: dağ, "Kitabi - Dədə Qorqud" dastanı, şeir, türk xalqları ədəbiyyatı, bədii simvol**

Zamanından asılı olmayaraq bütün mərhələlərdə işarə, arxetip, kult, kök simvol, metofora, motiv kimi çeşidli funksiyalarla Azərbaycan şeirini çevrələyən aktiv simvollardan biri "dağ"dır.

Dağ türk xalqlarının ədəbi abidələrində, folklorunda, aşıq və akın yaradıcılığında, yazılı ədəbiyyatında, cağdaş türk xalqlarının şeirində ortaq simvolik səciyyəsi ilə tez-tez xatırlanan, yada salınan əsas məkanlardan biridir. "Kitabi – Dədə Qorqud" dastanının ayrı-ayrı boylarında rast gəlinən Ala dağı, Qazlıq dağı, Qara dağı əski oğuzlar müqəddəs məkan, böyüklük, ucalıq rəmzi, igidlik, ərənlik meydanı, yurd, vətən simvolu kimi düşünmüşdülər ki, motivdəki eyni xarakter keyfiyyətləri qırğızların "Manas" dastanında Ala-Too dağının, türkmən ədəbiyyatının nümayəndəsi Qaracaoğlanın şeirlərində Bolkar və d. dağların timsalında görmək mümkündür. Bu da hər bir xalqın etnogenezisində, yaşam və mücadiləsində, təkamülündə məkani baxımdan dağların mühüm əhəmiyyətə malik olduğunu göstərir.

Türkün bədii təfəkküründə aparıcı məqamlardan biri "dağ"ın müqəddəs məkan, ilahi varlıq kimi dəyərləndirilməsidir. Dağlara bu cür yanaşma "Kitabi – Dədə Qorqud", "Koroğlu", "Manas", "Ural-batır", "Şan-kızı", "Maday Qara", "Alpamış" kimi türkdilli dastanlarda da əhəmiyyətli yerlərdən birini tutur. Əski türklərin dini inanclarında yerdən göyə qədər yüksələn, əzəmətli, böyük dağlar ünsiyyət quran, danışan, yerdəki informasiyanı tanrıya ötürən varlıq şəklində düşünülmüşdür. Türklərin məskunlaşdığı başları göyləri dələn Altay dağ silsiləsi müqəddəs hesab olunmuşdur. Türkoloq alim B.Ögel yazır: "Altay dağlarının tümü kutsal idi. İçlerinde herhangi bir tepe, bütün Altayları təmsil edəməzdi. Göge yükselen zirvelerin hepsi birden, Tanrı yerine kadar uzanıyorlardı......Altay dağlarının adını anarak, ona kurban veriyorlar, dileklerde bulunuyorlar və ondan sonra da ağlayıp yalvarıyorlardı" (2, 132). Şaman ayinlərində Altay dağlarına xitabla yalvarılır, ondan nicat dilənir. Dağ ruhlu bir varlıq kimi dərk olunur. "Temiz yurdumuz yırpanıyor, az ulusumuz sıkıntı çekiyor. Ey mukaddes Altayım, biz nə yapalım! Ak sakallı atalarımın takdis ettiği ulu Altayım, geçim versen ne olur? Vücudumuz kirlenmese, gözlərimiz yaşarmasa nə olur? Bereketli sürülerimizin kutlarını yaradan mukaddes Altayım, yer – suyum!.." (1,46). Bilgiyə əsaslanaraq türklərin meydana gəlməsi və formalaşmasında mənbələrdə adı keçən Tanrı və Altay dağlarının eyni dağ silsiləsi olması ehtimalı da mümkündür ki, bu da ayrıca araşdırmanın mövzusudur. Mifoloji anlamda dağın əcdad kultu olaraq insan doğurması və eləcə də, insanın dağdan yaranması türk mifoloji düşüncəsində zəngin çalarlar, qaya mifogenemini, yeni ideya-məzmun qaynağına çevrilmişdir. Zaman keçdikcə dağın müxtəlif işarəviliyi transformasiyalarda konteksti yeniləsə də, simvolik mənasını qoruyub saxlamışdır. Lakin dağın mifoloji düşüncədəki dünyanı dərk modeli olaraq bütöv məzmunu simvolik hissələrə parçalanmış, şeirimizdə daşlaşmış simvol effektini itirərək əsasən metoforik, bəzən isə motiv kimi işləklik funksiyası əldə etmişdir. Dağın ilkin mifoloji təfəkkürdə Tanrı, Ana, İnsan kimi gerçək funksiyası, sonrakı mərhələdə Vətən rəmzi, yurd yeri, ucalıq, böyüklük rəmzi kimi çeşidli çalarlarla folklor nümunələrində, aşıq ədəbiyyatında, ayrı-ayrı şifahi xalq ədəbiyyatı nümunələrində xüsusi yer almışdır. Folklorşünas Cəlal Bəydili müxtəlif qaynaqlara istinad edərək zəngin mifoloji semantikaya malik dağın oğuzlarda, əski türklərin düşüncəsində əsas təbiət obyekti olduğunu, yurd yeri kimi simvolik funksiyasını göstərərək yazır: "Çin qaynaqlarından aydın olur ki, əski türklər Bodin İnli dağına "ölkəni qoruyan ruh" kimi baxmışlar. Yəni türk mifoloji düşüncəsində dağ ruhu həm də torpaq hamisi, yurdun qoruyucusu idi" (4, 162).

Hər bir xalqın məişətində, adət-ənənəsində, bədii təfəkküründə müəyyən hal və hərəkətin, məfhumun daşıdığı xüsusiyyətlərin milli düşüncə və psixologiyaya uyğun simvollaşması dar zaman çərçivəsində baş verən proses olmadığını görürük. Bunun tarixi keçmişə, əxlaqi-mənəvi dəyərlərə malik olan xalqın özünüdərkdən

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2025*
*Səh. 321-326*

başlayaraq milli təfəkkürdə toplum düşüncə meyarı kimi sabitləşən məqam olduğu ortaya çıxır.

Türk xalqlarının şeir ədəbiyyatında diqqət çəkən məqamlardan biri dağla canlı ünsiyyətdə onu yalnız insana yüksək zövqverici, əhvali-ruhiyyə, xoş ovqat mənbəyi kimi deyil, insanın mənəvi qayğılarının da sığnaq məkanı, tənhalığının obyekti kimi dəyərləndirmək meyili güclüdür. Motivdəki digər maraqlı məqamlardan biri dağın yurd yeri, ata ocağı, vətən simvolu kimi stereotipləşməsidir ki, bu da etnik-milli oxşarlığa malik xalqların tarixi keçmişi ilə sıx bağlıdır. Məkan baxımından yaşayış məskəni seçilmiş dağ ətəkləri oğuz və qıpçaq tayfalarının, müasir Azərbaycan, özbək, qırğız və türkmənlərin yaşam və mücadiləsində böyük əhəmiyyət kəsb etmiş və bu bağlılıq ədəbi-tarixi mərhələlərdən keçərək folklor yaddaşında, dastan təfəkküründə, aşıq - akın yaradıcılığında, yazılı ədəbiyyatda vətən simvolu kimi qəlibləşmişdir. “Manas” eposunda Ala-Too dağının qorunması, düşmən tapdağından azad edilməsi üçün Manasın apardığı mübarizə, Çakıb bəyin çin, kalmık savaşlarında dağlara sığınması və eləcə də “Koroğlu” dastanında Alı kişinin oğlu Rövşənin sıldırım qayaları, güllü-çiçəkli çəmənləri, cüyür oylağı dağ ətəkləri ilə əhatə olunmuş Çənlibeli özünə arxa, yurd yeri seçməsi dağlara müqəddəs məkan kimi toxunulmaz, qoruyucu inamdan irəli gəlir. Eyni məqamla “Kitabi – Dədə Qorqud” dastanında da rastlaşmaq mümkündür. Belə ki, dastanda adı çəkilən üç tip dağın hər biri etnopsixoloji, etnofəlsəfi və milli-əxlaqi dəyərlər baxımından bədii təfəkkürdə sabitləşən yeni bir keyfiyyət və simvolun daşıyıcısıdır. Dastanda adı çəkilən “Qazlıq” dağı oğuzların müqəddəs dağlarından biri kimi səciyyələnir:

Axar sular deyib qarğama,
Qazlıq dağının günahı yoxdur.
Qaçan keykləri qarğama,
Qazlıq dağının günahı yoxdur.
Aslanını, qaplanını qarğama,
Qazlıq dağının günahı yoxdur (5, 183)

“Manas” eposundakı Ala-Too dağı ilə “Kitabi – Dədə Qorqud” dastanındakı Ala dağ oğuz və qıpçaq tayfalarının məskunlaşdığı Tanrı dağlarının bir silsiləsidir ki, adından məlum olduğu kimi bu dağlar müqəddəs hesab olunmuş, öz əzəməti, böyüklüyü ilə türklərin dini inanclarında əhəmiyyətli rol oynamışdır. Milli folklor nümunələrində dağlarla ünsiyyət qurma, ona dərd ortağı kimi canlı qismində yanaşma, ondan kömək ummaq və s. mövcud məqamla sıx şəkildə bağlıdır:

Ay dağlar, uca dağlar,
Hamıdan qoca dağlar,

Ayrılıqdan üzüldüm,
Mən necə dözüm, dağlar (3, 96)

Türk, azərbaycan, qırğız, özbək, türkmən folklorunda, əsatir, dastan və bayatılarda güclü olan bu yönüm aşıq, akın yaradıcılığında, ortaq etnosa malik türkdilli xalqların çağdaş poeziyalarında inkişaf edərək öz informativliyini, genetik kodun aktivliyini qoruyub saxlayır.

Babalar ən çətin anlarında dağlara sığınıb, güc-qüvvət alıb, təbiət onların ən yaxın dərd ortağı, munis dostu olub. Dağlar onlar üçün yalnız yaşam yeri, coğrafi məkan olaraq məhdudlaşmayıb, həm də simvollaşaraq insanın fiziki-mənəvi keyfiyyətlərinin və eləcə də ümumqavrayışda vətən anlayışının ünvanına-simvoluna çevrilib. Lakin bu təkcə fiziksəl olaraq deyil, psixoloji, bədii, ekoloji şüurun formalaşması, ekobirliyin yaranması bədii, psixoloji, fəlsəfi, sosioloji yönümdən yeni məqamların yaranmasına gətirib çıxarıb. Təbiətlə baş-başa vermək, ünsiyyət qurmaq, dərd ortağı, munis dost kimi onunla söhbətləşmək bədii düşüncə faktı kimi ta qədimlərdən mövcud olmuşdur. S.Vurğunun "Dağlar", Q.Qasımzadənin "Gəlmişəm", "Dağlar buraxmır məni", M.Arazın "Dağlara çağırış", "Dağlar küsüb", M.Yaqubun "Dağlar, məni qəbul edin", M.Aslanın "Dağlar həsrətimi duyacaqdımı", A.Zeynallının "Dağlardan ayrılanda" və s. şeirlərdə dağ yeni insanın da ilk daldalandığı məkan kimi dəyişməz olaraq qalır.

Səndən ayrılanda dağlar, cavandım
İndi görüşünə qoca gəlmişəm (6, 13).

"Dağlara" canlı bədii obraz kimi simvolik məzmun vermək, onu obrazlaşdırmada el ağsaqqalı, müdrik qoca kimi yanaşma Qasım Qasımzadə şeirində özünəqayıdış, özünüdərk etmə kimi səciyyələnir. Dağın böyüklük, ucalıq rəmzi kimi müqəddəs statusu müasir şeirdə təzələnir və dağın simvolik statusunun yenilənməsi, bədii obrazın kult, dəyər anlamının təzələnməsinə yönəlir.

Ömrün zinətini illər alıbdır,
Mahir oğru kimi bir-bir çalıbdır.
Bircə sən verdiyin vüqar qalıbdır,
Hüzuruna başı uca gəlmişəm (6, 14).

Dağ univesal simvol olaraq bədii düşüncədə sabitləşmiş, ayrı-ayrı xalqların ədəbiyyatında zəngin məna, ideya-məzmun çalarları ilə seçilən yer tutmuşdur. Aparılan müşahidə və təhlillər zamanı hər bir xalqın məişətində, adət-ənənəsində, bədii təfəkküründə müəyyən hal və hərəkətin, məfhumun daşıdığı xüsusiyyətlərin milli düşüncə və psixologiyaya uyğun simvollaşmasının dar zaman çərçivəsində baş verən proses olmadığı qənaətinə gəlirik. Bunun tarixi keçmişə, əxlaqi-mənəvi dəyərlərə malik olan xalqın özünüdərkdən başlayaraq milli təfəkkürdə toplum düşüncə meyarı kimi sabitləşən məqam olduğu müəyyənləşir.

**Ədəbiyyat**

1. Abdülkadir İnan. Tarihte ve bugün Şamanizm.Ankara, 2017
2. Bahaeddin Ögel. Türk kültürünün gelişme çağları. 2 ciltte. I cilt. İstanbul, 2001
3. Bayatılar. Bakı, "Altun kitab", 2005
4. Bəydili Cəlal (Məmmədov). Türk mifoloji obrazlar sistemi: struktur və funksiya (monoqrafiya). Bakı, Mütərcim, 2007, 272 s.
5. Kitabi Dədə Qorqud. Bakı, "Öndər" nəşriyyatı, 2004
6. Qasım Qasımzadə. Seçilmiş əsərləri. Bakı, Azərnəşr, 1988, 336 səh, səh.13

**GUNAY GARAYEVA**

## THE SYMBOL OF MOUNTAIN IN AZERBAIJANI LITERATURE
## SUMMARY

The article explores the symbolic meanings of the "mountain," one of the "elders" of Azerbaijani literature. The symbolic interpretations of the "mountain," which holds rich meaning not only in Azerbaijani literature but also in various cultures, especially in the literature of Turkic peoples, are examined. The image of the mountain as an artistic symbol is found in the Book of Dede Korkut, as well as in the epics of different Turkic nations, folklore examples, ashik literature, written literature, and modern poetry. The symbolic aspects of the mountain, such as the symbols of greatness, elevation, heroism, the arena of sages, as well as the homeland, and the symbol of the fatherland, are tracked within the context of different historical periods. The process of the mountain image becoming a symbol in Azerbaijani literature is identified not within a narrow historical timeframe, but through the ethno-genesis of each people, their worldview, psychological and emotional states, and the historical-cultural events they have experienced, which have endowed the image with new ideas and meanings.

**Keywords**: mountain, The Book of Dede Korkut, poetry, literature of Turkic peoples, artistic symbol.

**ГЮНАЙ КАРАЕВА**

## СИМВОЛ ГОРЫ В АЗЕРБАЙДЖАНСКОЙ ЛИТЕРАТУРЕ
## РЕЗЮМЕ

В статье исследуется символическое значение «горы», одного из образов «старейшин» азербайджанской литературы. Внимание уделяется символическим трактовкам «горы», которая имеет богатое значение не только в азербайджанской, но и в отдельных культурах, особенно в литературе

тюркских народов. Образ горы как художественного символа представлен в «Книге Деде Коркута», а также в эпосах различных тюркских народов, фольклорных образцах, творчестве ашиков, письменной литературе и современной поэзии. Символические аспекты горы, такие как символ величия, возвышенности, храбрости, арены мудрецов, а также символ родной земли и отечества, отслеживаются в контексте различных исторических эпох. Процесс символизации образа горы в азербайджанской литературе определяется не в узких временных рамках, а через этногенез каждого народа, их мировосприятие, психоэмоциональное состояние и историко-культурные события, которые наполнили этот образ новыми идеями и значениями.
**Ключевые слова**: гора, «Книга Деде Коркута», поэзия, литература тюркских народов, художественный символ

**Rəyçi: filologiya elmləri doktoru Sara Osmanlı**